**AFAQ QASIMOVA**
**AMEA -nın Folklor İnstitutu**
**Müslüm Maqamayev dongəsi 3**
**qasimovaafaq@mail.ru**

# QAÇAQ QƏHRƏMAN OBRAZININ QƏDİMƏ SÖYKƏNƏN TARİXİ KÖKLƏRİ

Məqalədə qədim köklərə malik olan "nəcib quldur", "xalq intiqamçısı" obrazları qaçaq obrazı ilə müqayisəli təhlil edilir. Real qaçaq qəhrəmanlarla əfsanəvi "nəcib quldur" obrazının yeddi bənzər xüsusiyyəti üzə çıxarılır. Təhlil zamanı qaçaq dastanlarından epizodlar verilir. Araşdırma göstərir ki, tarixin bütün dönəmlərində "nəcib quldur", "xalq intiqamçısı", "ədalət bərpaçısı" və.s kimi qəhrəmanlara ehtiyac olmuşdur. Aydın olur ki, bizim qaçaq hərəkatı kimi adlandırdığımız hərəkatlar, bənzər formada tarixin bütün dönəmlərində dünyanın bir çox ölkəsində mövcud olmuşdur. Onların bəziləri yalnız öz məmləkətində məşhur olmuş və öz ölkələrində müxtəlif cür adlandırılmışdır. Məsələn, Balkanlarda **hayduk,** Hindistanda **dakoit**, Braziliyada **congaço**, Ukraynada **oprişka,** Macarıstanda **betarı,** Yunanıstan və Kiprdə **kleft** və s. milli adlarla adlandırılır. Ədalətsizliklə üzləşən xalq öz arzularını bu qəhrəmanların simasında yaşatmışdır. Qaçaq qəhrəmanlar folklor nümunələrində qüsursuz təsvir edilmişlər. Bu da təbiidir. Çünki qaçaq qəhrəmanlar "nəcib quldur" və ya "xalq intiqamçıları" kimi folklorda epik qəhrəmana xas olan xüsusiyyətlərə malikdirlər. İstər qaçaq dastanlarında, istərsə də qədim epos və ya yazılı ədəbiyyatda "nəcib quldur" obrazını təmsil edən nümunələrdə dörd obraz tipinə rast gəlirik ki, bunlar da məqalədə sadalanır.

Belə nəticəyə gəlinir ki, xalq hətta müasir dövrdə belə "xalq intiqamçısı", "nəcib quldur" obrazını yaşatmışdır. Bu obrazlara müraciət edərək onları kinofilmlərdə, çizgi filmlərində canlandırmışlar.

**Açar sözlər:** qaçaq obrazı, "nəcib quldur", "xalq intiqamçısı", Tiamida obrazı, Qaçaq Nəbi, Robin Hud

Xalq yaradıcılığının maraqlı və əvəzsiz janrlarından biri olan dastanlarımız rəngarəng, geniş həcmli sözlü tariximizdir. Bu janr hansı dövrdə yaranmağından asılı olmayaraq həmişə yaşardır. Qəhrəmanın həyat yolunu əks etdirən dastanlar onların şəxsi özəlliklərini deyil, yarandığı gündən hər zaman məxsus olduğu xalqın yaşam, düşüncə tərzini, ictimai-siyasi durumunu əks etdirmiş, zamanının tələblərinə uyğunlaşmışdır. Yaxşı yaşamaq, ədalətli zamanda və ədalətli cəmiyyətdə ömür sürmək xalqın bütün dövrlərdə ən ümdə arzusu olmuşdur.

Tarixin müxtəlif dövrlərində hakim təbəqənin ədalətsizliklərindən narazı qalan insanlar qəhrəman obrazı yaratmış və onlar tarix boyu hakim təbəqənin düşməni, kasıbların isə dostu sayılmışdır. Bu obrazlar dünya folklorunda **"nəcib quldur" ("**благородный разбойник", "a noble robber", "gentleman thief") **"xalq intiqamçısı"** (народный мститель) adlandırılır. Bizim folklor nümunələrimizdə də onlara müxtəlif adlar vermişlər. Folklorşünas R.Rüstəmzadə qeyd edir ki, "Kitab aləmində onları "xalq intiqamçıları", "həqiqət mübarizləri", "yoxsulların havadarı", kəndli cəngavərləri", "ədalət mücəssəməsi" kimi ifadələrlə səciyyələndirirdilər." (15, 54) Dünya folklor nümunələrində kifayət qədər rast gəldiyimiz xoşniyyətli qəhrəmanların məqsədi heç zaman kimləri isə talayıb varlı olmaq deyil, kasıbların haqqını qorumaq, varlıların başqalarına zülm etməklə topladıqları var-dövləti onlardan alıb kasıblara verməkdir. O, qəhrəman taleyin qisməti nəticəsində, məcburiyyət qarşısında cinayətkar olsa da, sona qədər şərəf-ləyaqətini qoruya bilir, bəzən insanlarla kobud davransa da, hətta insan öldürsə belə, onların bu hərəkəti xalqın gözündə humanist görünür. Onların cəzalandırdıqları xalqın sevmədiyi insanlar olduqları

üçün oxucuda bu obraz haqqında cinayətkar təsəvvürü formalaşdırmır. Bu obrazlar xalqı təmsil edən və yol kəsərək igidliklər göstərən ingilis balladalarının dünyaca məşhur qəhrəmanı Robin Huddun adı ilə daha çox bağlıdır. "Xalq intiqamçıları"nın simvoluna çevrilmiş Robin Hudun dəstəsində bütün insanlar xeyirxah, xoşniyyətli və kasıbların dayağıdırlar. Hakim dairələrin özbaşınalığından cana gələn Hud Şervud meşəsinə üz tutur, öz ətrafına kasıb təbəqəni təmsil edən insanları toplayır. Arvadı Marian tarixi qəhrəman Qaçaq Nəbinin Həcəri kimi onun həm dostu, həm də silahdaşıdır. Düşməni isə Nottinqemin şerifi, cənab Qay Qisborndur. Ümumiyyətlə, "xalq intiqamçıları"nın adətən düşmənləri yerli hakim dairələr olur. Dünya folkorunda "Robin Hud"un missiyasını davam etdirən epos qəhrəmanları kifayət qədərdir. Yarı gerçək, yarı əfsanəvi qəhrəmanlar feodal özbaşınalığına, müstəmləkə siyasətinə qarşı sadə əhalinin mənafeyini müdafiyə edirdilər. Əhali isə onları hökumətdən gizlədib, adlarını qəhrəmanlaşdırıb, folklorda yaşadıb. Bizim qaçaq hərəkatı kimi adlandırdığımız hərəkatlar, bənzər formada tarixin bütün dönəmlərində dünyanın bir çox ölkəsində mövcud olmuşdur. Onların bəziləri yalnız öz məmləkətində məşhur olmuş və öz ölkələrində müxtəlif cür adlandırılmışdır. Məsələn, Balkanlarda **hayduk,** Hindistanda **dakoit**, Braziliyada **congaço**, Ukraynada **oprişka,** Macarıstanda **betarı,** Yunanıstan və Kiprdə **kleft** və s. milli adlarla adlandırılır. Onların xeyirxah əməlləri və varlılardan var-dövləti alaraq kasıblar arasında bölüşdürməsi xalqın qəlbinə yol tapıb. Məsələn, Koreyada kasıbların sevimlisi Xon Qildon obrazına 16-17-ci əsrlərdə yaradılmış eposda rast gəlinir. Dünyanın bütün ölkələrininin folklorunda bu tip qəhrəmanlara rast gəlmək olar. Bu "Robin Hudlar" haqqında bilgilər dünyanın müxtəlif ölkələrinin uzun süjet strukturlu janr olan dastanlarında təsvir edilmişdir. "Bu uzun süjet strukturlu janr bütün hallarda qəhrəmanın həyat bioqrafiyasının təqdimidir. Bu qəhrəman şəxsi özəlliklərindən, istək və arzularından azad olmuş, milli xarakteri tipikləşdirən, millətin simvolu olmuş bir personajdır. Dastan qəhrəmanı tarixi bir zamanda yaşamış, mübarizə aparmış və ya yaşadığına inanılan şəxs də ola bilər." (3, 255) Həmin personajlar öz xalqının qəhrəman simvoludur. Araşdırma göstərir ki, xalqın xilaskarına çevrilən qəhrəman obrazının tarixi qədimdir və tarixin bütün dövrlərində onlara müraciət olunmuşdur. Nəcib qəhrəmanlar bütün dövrlərdə xalqın arzu və istəklərinin təmsilçisi olmuşdur. Hələ qədim folklor nümunələrində xalqın xilaskarı obrazına rast gəlirik. Məsələn, e.ə. 6-cı əsrin sonlarında yazılmış Geliodoranın "Efiopika" povestində **Tiamida** adlı qəhrəman haqsızlıqlara dözməyərək meşələrdə qaçaq həyatı yaşayır. O, ətrafına dəstə toplayaraq xeyirxah və ədalətli başçı olmağa çalışır. "*Əldə etdiyimiz azuqəni böləndə sizinlə eyni paya qane olmuşam, əsrləri satanda gəliri ümumi xəzinəyə qoymuşam, hesab etmişəm ki, yaxşı sərkərdə olmaq üçün əməyin çox hissəsini öz üzərimə götürməli, gəliri isə bərabər bölməliyəm.*" (22,103) Verilmiş parçada qəhrəmanın ədalətli mövqedə dayanması aydın sezilir. Dahi filosof Aristotel "Poetika" əsərində belə xarakterin vacib dörd cəhətini sadalamışdır ki, bunlardan ən birincisi nəciblikdir. "Birincisi və ən mühümü budur ki, xarakterlər gərək nəcib olsun. Təsvir olunan şəxs xarakterə o zaman malik ola bilər ki, deyildiyi kimi, nitqində, yaxud hərəkətində necəliyindən asılı olmayaraq, hər hansı iradi istiqamət olsun; lakin xarakter məhz o zaman nəcib ola bilər ki, iradənin də nəcib istiqamətini təmsil eləsin." (2, 44-45) Ümumiyyətlə, "Qaçaq" terminini ilk dəfə yazılı ədəbiyyata Alman yazıçısı Şiller "Qaçaqlar" əsərini yazmaqla gətirmişdir. Şiller kimsəsizlərin dostu, haqsızlığa və ədalətsizliyə qarşı mübarizə aparan yazıçı kimi tanınmış, **Karl Moorun** timsalında romantik arzu və istəklərini gerçəkləşdirmişdir. Onun bu əsəri folklordan yararlanaraq millilik, doğma elə, kökə bağlılıq, azadlıq mübarizəsi kimi əsas ideyaları təbliğ edir və qəhrəman ictimai siyasi şəraitlə razılaşmayan mübariz insan olur. Əsərinin qəhrəmanı Karl bir müddət Boqem meşəsində yaşayaraq varlıları talayıb mal-mülkü kasıblara paylayır. Özünün ədalətli, ətrafının isə ədalətsiz olması, haqsızlığı sezərək ondan uzağa qaçması Karlı yolkəsən, soyğunçu quldurlardan fərqləndirir. Bir körpəni oda ataraq qatil hərəkəti ilə öyünən dəstə üzvü Şufterleyə "*Elə isə qoy, həmin od sinəndə qiyamətə qədər əbədi alovlansın. İtil əclaf! Bir də səni öz dəstəmdə görməyim.*"

(23,70) deyərək onu dəstəsindən qovur. Qaçaq Nəbi, Qandal Nağı, Dəli Alı, Qaçaq Kərəm və başqa qaçaqlar da Karl Moor kimi dəstəsində ədalətsizliyi qəbul etməz, əksinə ona qarşı ciddi mübarizə aparardılar. Rus ədəbiyyatında isə məşhur alicənab qaçaq obrazı A.S.Puşkinin "Dubrovski" əsərinin qəhrəmanıdır. Dubrovski güclülərin tərəfini saxlayan, atasının mal-mülkünü ədalətsiz qərarla varlılara verən məhkəməyə qarşı çıxaraq nəcib quldur həyatı yaşamağa məcbur olur. Əsər boyu dəstəsindəki haqsızlığa qarşı çıxır, sonda isə məmləkətini tərk edir.

Dünya folklorunda alicənab, nəcib qaçaq obrazı daha əvvəllərə təsadüf etdiyi kimi Azərbaycan folklorunda da bənzər obrazın tarixi qədimdir. A.Dobrolyubov qeyd edir ki, "Doğma vətənin fəlakətə uğradığı zamanlarda xalq öz keçmiş şöhrətini xatırlayaraq qədim əfsanələrə, rəvayətlərə müraciət edir, onları yenidən işləməyə, yenidən canlandırmağa başlayır." Azərbaycan dastanlarında xalqın mənafeyini təmsil edən qəhrəman obrazına hələ 12-ci əsrdən rast gəlinir. Belə ki, qaçaqçılıq hərəkatının qəhrəmanı olmayan lakin, qaçaq həyatı yaşayan ilk qaçaq obrazı Qara Məlikdir. Qara Məliyin həyat hekayəsi Qaçaq Nəbi və digər qaçaqların həyatına bənzəyir. "Qara Məlik acınacaqlı güzəranla ərsəyə çatmış, atası hambal olmuş, o öləndən sonra, anası onu əzab-əziyyətlə böyütmüşdür. 11 yaşına çatanda isə o özü hamballıq etmiş və həm özünü, həm də anasını saxlamışdır. Lakin Nüsrəddinin və onun əmisinin təqibi nəticəsində kəndindən didərgin düşmüş, qəhrəmancasına həlak olmuşdur. Xalq isə öz xilaskarını nəğmə və dastanlarda yaşatmışdır." (15, 41) "Qara Məlik" dastanında Məliyin Şəmsəddin Eldəgizin nəvəsi Nüsrətəddinlə aralarında olan şəxsi münaqişə zəminində elindən-obasından qaçaq düşməsi, Nüsrətəddinin onu öldürmək istəyindən qurtularaq Təbrizin Ocan dağı yaxınlığındakı meşələrində özünə məskən salması, Nüsrətəddindən intiqam almaq üçün onun qohumlarına, yaylaqlarına hücum edib mal-qarasını talayıb, sonra var-dövləti öz ətrafındakı cavanlara, kənd yoxsullarına paylaması, Rüxsarə ilə ədalətsiz zamana qarşı mübarizəsi, Rüxsarənin onların sevgisinə sona qədər sadiq qalması faktlarına rast gəlinir. O, da bizim folklorumuzda xalqın sevimlisi, xilaskarı, ədalətli qəhrəman simasındadır. Qara Məliyin müsbət keyfiyyətlərindən biri də ailəyə, vətənə bağlılığıdır. Onun ölüm ayağında dediyi sözlər bunu təsdiqləyir. "*Ey kimsən? Ölməkdə olan mən yersizin sözlərini Rüxsarəyə yetir ki, Qara Məlik mərdliklə Ozan dağını düşmənlərdən qoruyarkən öldü. Amma, yarından niyaran, anasından uzaqlarda öldü. Çünki, onun bir koması olmadı. On ildir dağlar, dərələr onlara ev, meşələr isə yorğan olmuşdur.*" (15, 38) "Qara Məlik" dastanından sonra yaranan və türkdilli xalqların ortaq dastan qəhrəmanı olan "Koroğlu" dastanının qəhrəmanı xalqın xilaskarı, kasıbların havadarı hesab edilirdi. Koroğlu da öz sələfləri kimi yol kəsərək varlıların malını talayıb kasıblara paylayan yari mifik, yarı gerçək qəhrəmanlardan biridir. Koroğlunun iştirak etdiyi hərəkat birbaşa Azərbaycanda genişlənən kəndli hərəkatı ilə də əlaqələndirilir. "1610-1630-cu illərdə daha kəskin xarakter almış Cəlalilər hərəkatının başçılarından biri də Koroğlu idi. Burada kəndli hərəkatı ilə əlaqədar bir çox fakt və hadisələr mühafizə edilib saxlanılmışdır ki, bunlar eposun XVI-XVII əsrlərdə Azərbaycanda baş verən kəndli hərəkatının təsiri, inkişaf leymotivi əsasında meydana gəldiyini söyləməyə əsas verir." (12, 487-488) Koroğlu da türk dastan qəhrəmanı olaraq bir çox folklorşünasların tədqiqat obyektinə çevrilmiş, lakin onun tarixi şəxsiyyət olması və kəndli hərəkatı ilə əlaqəsi sübuta tam olaraq yetirilməmişdir. O, Türk dünyasını təmsil edərək nəcib qəhrəman kimi eposlarda yaşamış, xalqın arzu və istəklərini təmsil etmişdir. Qısası, Koroğlu kasıbları təmsil edir, onların mənafeyini qoruyur, bu səbəbdən sadə xalq qəhrəmanı qoruyur, onun ətrafına toplaşır, hətta onunla birgə vuruşur. Sonra onları dastanlarda yaşadır. Çünki bu cür qəhrəmanlar xalqının mənəvi xəzinəsidir və bu xəzinəni qoruyub gələcək nəslə çatdırmaq gərəkdir. Koroğludan sonra tarixi hadisələrlə əlaqədar olaraq yeni qaçaq qəhrəmanlar ortaya çıxdı. "Türk dünyasında qaçaqçılıq hərəkatı ilk öncə Osmanlı dövlətində XVI yüzildə başlasa da və bunun ən böyük və ən məşhur təmsilçisi Koroğlu olsa da, XVII əsrdə Karahaydar oğlu Mehmedlə davam etmiş, Osmanlı dövlətinin zəiflədiyi XIX yüzildə daha geniş vüsət almışdır. Ancaq quldurluq, yolkəsənlik, cənayətkarlığı

sosial əşkiyalıqla qarışdırmamaq lazımdır. Hər ikisinin təməlində iqtisadi amillər dursa da əşkiyalıq və ya qaçaqçılıq dövlətə qarşı deyil, pis yönəticilərə qarşı çevrilmişdir." (4,26) Türk folklorunda da qaçaqlar dünyanın müxtəlif ölkələrindəki qaçaqlarla eyni müstəvidə dayanır. "Koroğlu, Tənha Efe, Çakırcalı Efe kimi xalqın içindən çıxmış və zalım bəylərə, ağalara qarşı yoxsul xalqı qoruyan qaçaq fiquru yalnız Türkiyədə deyil, bütün dünya ədəbiyyatında rast gəlinir. Ona görə də İncə Mehmed yalnız Türk soylu qaçaqları ilə deyil, çeşidli ölkələrin, Robin Hood, Billy the Kid, Jasse James kimi əfsanələşmiş haydutlarla qohum hesab edilir." (10) Türk folklorunda "kaçak" kimi tanınan qəhrəmanlar bəzən qanundan qaçan mənasını da verərək əsasən iki - haram mala göz dikməmək və fağır-fuğura, kasıblara əl tutmaq kimi qanuna əməl edirdilər. Bu qanuna əməl edənlər xalqın sevimli qaçağına çevrilə bilmişdir. (18) Folklorşünas Füzuli Bayat isə söyləyir ki, "məlum olduğu kimi, "qaçaq və ya qaçaqlar dövlətə və ya onun idarəçilərinə qarşı savaşan, öz ədalət anlayışları, öz qanunları ilə hərəkət edən kəndliyə və ya kəndlilərə deyilir." **(3, 261)**. Öz mübarizə üsulu ilə qədim köklərə bağlanan qaçaq obrazları konkret olaraq qaçaqçılıq hərəkatı zamanı meydana gəlmişlər. Qaçaq hərəkatının kökləri feodalizm cəmiyyətinin qurulması ilə bağlıdır ki, bu cəmiyyətin ədalətsiz idarə etmə sistemi bu hərəkatı yaradıb. Qaçaq hərəkatı həm də xarici işğalçılara qarşı, müstəmləkəçiliyinə qarşı idi. Doğurdan da "tarixdə qaçaq hərəkatı azadlıq uğrunda mübarizənin tərkib hissəsini təşkil edib. "Qaçaqçılıq hərəkatı mərkəzi hakimiyyətin zəiflədiyi və qanunların işləmədiyi yerlərdə insanların haqq-ədalət axtarışından yaranan hərəkatdır". (5) Kökləri daha qədimə bağlanan "nəcib quldur" və ya "xalq intiqamçıları" nın, dünyaca məşhur "Robin Hud"ların qaçaqlarla ümumi cəhətləri çoxdur. Məsələn, qədim folklorda, istər yazılı, istərsə də şifahi ədəbiyyat nümunələrində dörd obraz tipinə rast gəlinir. 1. Hakim təbəqə (həmin dövrün vəzifə sahibi) 2. Xalqın nümayəndəsi (xalq qəhrəmanı və onun dostları) 3. Düşmən ünsürlər (həmin dövrün hakim təbəqəsinə xidmət edənlər) 4. Onlara qarşı dayanan xalq kütləsi. Bu obraz tipləri Tiamida, Karl Moor, Robin Hud, Dubrovski, Qara Məlik, Koroğlu kimi qəhrəmanları tərənnüm edən folklor və yazılı ədəbiyyat nümunələrindən başlamış qaçaq dastanlarına qədər xalq tərəfindən yaşadılmışdır. Kökləri qədimə bağlanan "nəcib quldur" obrazları ilə qaçaqların fəaliyyət xətti də bənzərdir. Onlar folklor nümunələrində:

1. **Kasıbları müdafiə edərək onlara dayaq dururlar.**

Həmin bu xüsusiyyəti Azərbaycanın qaçaq dastanlarının hər birində asanlıqla tapa bilərik. Çünki qaçaqlar kasıbları müdafiə edən zaman qaçaq düşmüş, sadə kəndliləri qoruduğu üçün ömrünün sonuna kimi təqiblərə uğramışdır. "Qaçaq Nəbi" dastanında bir nüçə epizoda nəzər yetirək. *Nəbi vergiyığanı öz yanında əyləşdirdi. Kəndlilərə gələn qızıl pulunu varlılardan alıb ona verdi, qəbz alıb кəndlilərə payladı. (1,359)*

"Qaçaq Kərəm" dastanında isə Kərəm ilə İsrafil ağa arasında Kərəmin kəndlini döyən bəyi vurması hadisəsindən sonra soyuqluq yaranır. İsrafil ağa Kərəm bəyi yenidən vurmağa qoymur və geri çəkir. *"- Sən neyləyirsən, bu, bəydir!*

*-Bəy olanda nə olar? Bir qoyun üstündə adamı belə döyərlərmi? İnsafsız!"* (16, 6)

Deməli, "yerli yönətici tərəfindən cinayətkar, qanun dışı adam elan edilən qaçaq kəndlilər tərəfindən haqqı bərpa edən, zalımdan məzlumun haqqını alan, azadlıq mücahidi, qəhrəman kimi qəbul edilir" (4,*13).*

2. **Qaçaq həyatı yaşamağının səbəbləri asan gəlir əldə etmək deyil, cəmiyyətdə baş verən haqsızlıqdır.**

Bu xarakter də qədim köklərə bağlanır. Molla Nur, Dəli Alı, Qaçaq Kərəm, Qaçaq Nəbini, Qaçaq Gülsümü, Qaçaq Tanrıverdi, Qandal Nağı və.s qəhrəmanların apardığı mübarizənin başlanğıcında haqsızlıq durur. Cəmiyyətdəki haqsızlıq üzündən qaçaq düşən qəhrəmanın təsviri ən orijinal şəkildə "Qaçaq Gülsüm" dastanda təsvir edilib. O, qadın olmasına baxmayaraq özündə cəsarət taparaq atasının kürəyinə yanan samovarı bağlayan Çar məmurunu layiqincə cəzalandırır. Qaçaq Nəbi atasını döyən çar məmuruna qarşı çıxmışdır. Qara Yusif kimi tanınan

qaçaq kəndin bəyinin bacısına qarşı etdiyi təhqir onu bəydən intiqam alaraq qaçaq düşməyə məcbur edir. Qaçaq Molla Nurun qaçaq düşməsinin səbəbi isə tamamilə fərqli məsələdir. Bir çox mənbələrdə onun əmisinin itini təsadüfən öldürməsindən sonra qaçaq düşməsi yazılır. Həmin dövrün yazılmamış qanununa görə iti öldürülən şəxs təhqir olunmuş hesab edilirdi və o, itin intiqamını Molla Nuru öldürməklə almaq istəyir **(8)** Bütün səbəblərin mahiyyətində ictimai quruluşun apardığı uğursuz siyasət, mülkədar özbaşınalığı dayanırdı.

**3. Qanuni əməlləri ilə belə düşmənlər mənən onlardan aşağıdırlar.**

"Xalq intiqamçısı" və ya "nəcib quldur" obrazını təmsil edənlər adam öldürür, qarət edir, lakin həmin əməllər xalq tərəfindən qəbul edilir. Çünki onlar bu əməlləri xalq tərəfindən sevilməyənlərə qarşı törədirlər. İstər Robin Hud, istərsə də Qaçaq Nəbinin hərəkətlərində kifayət qədər bu motiv özünü büruzə verir.

Nəbi görür ki, dostu Tunc Vəli tacirlərin qatırını dayandırıb. Nəbi onlara yaxınlaşdı. Çərçiləri tacırlərdən ayıran Nəbi onları buraxdı, xocaları saxladı. Tunc Vəli soruşdu:

*– Bunlar кimdi?*

*Nəbi cavab verdi:*

*– Bəylər, varlılar.*

*Tacirbaşı yalvarıb dedi:*

*– Ay Nəbi bəy, heç olmasa, atlarımızı, qatırlarımızı ver, minib gedəк.*

*Nəbinin acığı tutdu:*

*– Bəy babandı. Mən it olaram, bəy olmaram! Sizi кi, öldürməyib salamat buraxıram, sevinin! Tez buradan uzaqlaşın. (1,144)* Nəbi xocaların parçasını, atını, qatırını əllərindən aldı. Tacirlik etmək qanunsuz əməl deyil, əksinə Nəbinin onları talaması əməli qanunsuzdur. Dastanda bu epizodu oxuyarkən Nəbinin hərəkəti xalq tərəfindən müsbət qarşılanır. Çünki soyğunculuq əməli xeyirxah əməl təəssüratı yaradır. Belə ki, Nəbi əldə etdiyi hər bir şeyi yaxınlıqda yerləşən kəndin sakinlərinə paylayır.

**4. Yalnız məcburiyyət qarşısında qaçaq düşür və ya adam öldürürlər.**

Azərbaycan qaçaq dastanlarına nəzər yetirsək onların hər birində qəhrəmanın qaçaq düşmə səbəblərinin yalnız məcburiyyətdən baş verdiyini görərik. Hər bir qaçaq xalqı təmsil edən kəndliyə hökumət adamları tərəfindən törədilən haqsızlığa qarşı çıxaraq qaçaq düşməsi dastanın aparıcı xəttini təşkil edir. "*Bəylərin fürsət axtardıqlarını Nəbi də hiss edir, bir müddət onlardan uzaq gəzir, konfliktə girmək istəmir. Lakin atası Alı kişini xəstə yatdığı yerdə döyən Mahmud bəyin ədalətsizliyinə Nəbi göz yuma bilmir, onları şil-küt edib əzişdirir.*" (19, 63)

"Xalq intiqamçısı" düşmənlə qarşılaşanda ilk öncə özünün insanlığını, ləyaqətini göstərir. Düşmən həddini aşanda ona ləyaqətlə layiq olduğu cavabı verir.

Belə ki, bəylər tərəfindən öyrədilən Vasili adlı birisi Nəbini öldürməyi onlara söz verir. O, Nəbini Çiçəklidə tapır.

*"Vasilinin gəldiyini Nəbi eşitdi, bir yüкsəк yerə çıxdı:*

*– Ay Vasili, – dedi, – igid adamsan, özünü ölümə vermə, qayıt, get evinə. Mənim sənnən işim yoxdu. Yəqin səni öyrədiblər.*

*Vasili Nəbiyə dalbadal üç güllə atdı. Az qala güllələr Nəbinin ortasından кeçmişdi. Nəbi yenə ona dəlil-dəlalət elədi, bu yoldan çəкindirməк istədi. Vasili onun sözünə qulaq asmadı. Ona güllə ilə cavab verdi. Nəbi üçüncü dəfə dedi:*

*– Mən üç dəfədi səni düz yola çağırıram. Genə də deyirəm, səni aldadıblar. Özünü ölümə vemə, qayıt get.*" (8, 99) Nəbinin sözünü dinləməyən Vasili onu söyməyə başlayır. Nəbi məcbur olub ona atəş açır və öldürür. Nəbi onun ölmündən çox heyfslənir. "*Nəbi onun meyidinin yanında xeyli dayandı. Üzünü qibləyə çevirib onunla vidalaşdı.*" (1, 99)

Bir çox dastanlarda qəhrəmanın ona hücum edən qoşunun adamlarına atəş açmaq istəməməsi epizodlarına rast gəlirik.

"Qaçaq Kərəm" dastanından:

"- *Ədə, özünüzü öldürüb, bağrınızı yarmayın! Onsuz da sizə güllə atan deyiləm. Yazıq adamlarsınız, gedin başınızı saxlayın! Bir də bəyin, xanın fitnəsinə aldanıb canınızı güdaza verməyin!"* (16, 34) Qaçaq Kərəmin dilindən deyilən məşhur "incitmə məni Zalı xan" misrası da buna nümunədir. Düşməni ilə nəzakətli davransa da, Zalı xan asıb-kəsməkdən əl çəkmir. Sanki, Kərəmi onu öldürməyə sövq edir. Kərəmin Zalı xanı öldürmək fikri olmayıb. Zalı xan Kərəmi buna vadar edib. Təbrizə getmək istəyən Qaçaq Kərəmi yolda bir nəfər görüb tanıyır. Zalı xana onun yerini nişan verir. Zalı xan onu çayxanada yaxalayır.

*Zalı xan məni görəndə salam verdi. ... Dedi:- pasportun var? Dedim: -bəli. Dedi: vəliəhdin, rus konsulunun yanına getməliyik ki, sənin pasportunu görsünlər. .... İltimas elədim ki, məni vəliəhdin yanına aparma, mənə pislik etmə, mənim ziyarətimə mane olma. Bir daha ona and verdim. Dedi: yox, olmaz. Ona min manatdan üç min manatadək pul verdim, almadı. Dedi: getməliyik. Ölüb-öldürməkdən başqa çarəm yox idi."* (11,248-249) Ona bir neçə nəfər tərəfindən hücum olunduğunu görən Qaçaq Kərəm Zalı xanı öldürür.

**5. Qadınlara qarşı zorakılığı özünə yaraşdırmır, əksinə alicənab hərəkətləri ilə digərlərinə nümunə olurlar.**

Həcəri axtaran Nəbi xəbər tutur ki, bəylər Pəhim bəyin evində qonaqdırlar. Pəhim bəyin evinə gedən Nəbi bəyləri öldürmək istəyir.

*"Pəhim bəyin arvadı Natəvan xanım yaylığını onun ayaqlarının altına atdı, gözlərinin yaşını töкüb dedi:*

*– Ay Nəbi qağa, əgər səndə igidliк qanı varsa, mənim ləçəyimi qana bulama! Bu üzüqaraları bu dəfə mənə bağışla!*

*Nəbinin qolları boşaldı, кözün üstünə su səpən кimi, acığı yatdı. Natəvan xanımın yaylığını yerdən götürüb özünə verdi:*

*– Bağışla, bacı, səni incitdim. Bunların nə qədər günahları olsa da, sənə bağışlayıram…" (1,144)*

Qadına qarşı alicənab olan ən məşhur qaçaqlar arasında Qaçaq Kərəm, Qaçaq Nəbi, Molla Nur, Qaçaq Dəli Alının adını çəkmək olar.

Qaçaq Kərəmin qadınlara ola hörməti hamıya məlum olduğundan Gəncə əhalisi yaylağa köçən zaman Kərəm onların yolunu kəsirdi. Kişilər qiymətli əşyalarını qadınların çadraları altında gözlədirdi. Kərəm isə bunu görsə belə öz dəstəsinə tapşırırdı: *"...nəbadə qadınlara toxunasınız. Çünki onlar bizim namusumuzdur. Biz onların namusunu hər cür hücumlardan muhafizə etməliyik.*" (11, 220)

**6. Bu obrazı təmsil edənlər yalnız "varlılardan alıb kasıblara paylamaq" prinsipi ilə oğurluq edirlər.**

Bu prinsip qaçaq dastanlarında qorunub. Məsələn, "Qaçaq Kərəm" dastanında kiçik bir epizoddan Qaçaq Kərəmlə Sədr Əzəm-Əli Sultanın dialoqundan onun mübarizəsinin məqsədi aydın sezilir. Belə ki, Nəsrəddin şahın xəzinəsi sarayın nüfuzlu şəxsləri tərəfindən oğurlanaraq bu iş Qaçaq Kərəmin üstünə atılır. Kərəm oğurlanan bütün xəzinəni dövlətə qaytarır. Sultan Qaçaq Kərəmlə görüşür və ondan soruşur.

*-Kərəm, sən ki gözü-könlü tox adamsan, dövlətin xəzinəsini bütövlükdə özünə qaytardın. Bəs yüz mindən artıq qoyun-quzunu, otuz mindən artıq mal qaranı nəyə görə talamısan?*

*-Sədr əzəm Əl Sultan sağ olsun. Sizin o siyahıdakı rəqəmlər mənim etdiklərimdən qat-qat azdır. Ancaq nəzərinizə çatdırıram ki, mən o qədər haqq-hesabdan bir quzu da kəsib yeməmişəm. Nə də o sürülər bu dövlətin ərazisindən kənara çıxmayıb. Sadəcə olaraq sahiblərini dəyişib. Əgər mən 5000 qoyundan min qoyun almışamsa, o bir agadan ötrü heç nədi. Əvəzində isə bu dövlətə nifrət bəsləyib, qarğış tökən kasıbların, acından ölən körpələrin*

*sayı azalıb. Əkin yerində taxılı da, pambığı da eləcə ədalətnən böldürmüşəm. Mənim üsyanım dövlətə qarşı yox, xalqa qənim çıxan harınlaşmış adamlara qarşı olub.* (13,132)

**7. Onlar talançı, quldur-oğrularla şəxsən mübarizə aparırlar.**

Əvvəldə göstərdiyimiz nümunədə qədim povest qəhrəmanı Tiamida, Robin Hud, Dubrovski, Karl Mur öz dəstələrində oğrulara qarşı mübarizə apararaq onları qovmuşlar. Dastanlarda qaçaqlarların oğru-quldurlarla mübarizə aparması bir çox epizodlarda özünə yer alıb. Dastanda yer alan epizodlara arxiv materiallarında rast gəlirik. Deməli, bəzi tarixi faktlar rəngarəng boyalarla təsvir edilərək dastanlaşıb. Məsələn, "Qaçaq Nəbi" dastanında iki Nəbi obrazı qarşılaşdırılır. Qaçaq Nəbi quldurluq və soyğunçuluğa qarşı çıxan, onu-bunu talayaraq varlanan quldurlara qarşı mübarizə aparan obrazdır. Qara Nəbi isə quldur və soyğunçudur. Hətta Maksim Qorki də ona mənfi münasibət bildirərək demişdir: "O, Zaqafqaziyada 1887-ci ildə peyda olmuşdur və demək olar ki, düz on il bütün camaata hədə-qorxu gəlmiş, onları amansızcasına soymuş və əzab-əziyyət vermişdir. Onu Zaqafqaziyada tayfaların hamısı tanıyır və ona lənət yağdırırdı." (15,57) "Qaçaq Nəbi" dastanını toplayan folklorşünaslardan biri Ə.Tahirov yazır ki, "Bir çox burjua ədəbiyyatşünasları, eləcə də xalqın qəddar düşmənləri, xalq arasında böyük nüfuza malik olan Nəbini quldur, bandit adlandırıb onun əsl tarixi-ictimai simasını gizlətməyə çalışmışlar." (17, 3) Qaçaq Nəbini Qara Nəbi ilə eyniləşdirməyə çalışmışlar. Əvvəllər həmin quldurun milliyəti açıqlanmasa da sonradan professor A.Nəbiyev yazırdı "Tarixi faktlar göstərir ki, XIX əsrin ikinci yarısında gəlmə ermənilər arasında "yol kəsib, quldurluq eləyənlər" vardı. Onlar içərisində Qara Nəbi kimi özünü qələmə verən Aşot Qriqoryan və Kərəm adı altında yaşayan Maştop Sarkisyan ermənilərin qanını içən, kəndlərini yandıran, qız gəlinini özü ilə dağlara götürüb gedən quldurlar idi." (12,588). Bu tarixi faktlar yaddaşlarda yaşayaraq dastanlara daşınmışdır.Dastanda əvvəllər Qaçaq Nəbi ilə həbsxanada yatan oğru və yolkəsən quldur kimi təsvir edilən Qara Nəbi elə Qaçaq Nəbinin özü tərəfindən öldürülür. Qara Nəbi öz çirkin əməllərini bəzən Qaçaq Nəbinin adı ilə həyata keçirirdi. "Qaçaq Nəbi" dastanından:*Bəs Qara Nəbi кim idi? Qara Nəbi Arazın hər iкi tərəfində soyğunçuluq edən bir quldur idi. O, çox zaman özünü Qaçaq Nəbi adlandırıb hər yerə gedirdi. ...Özünün də yaranallarla, naçalnikлərlə, pristavlarla əlaqəsi var idi. Həm də onların casusu idi.*(1,108) Qaçaq Nəbi öyrənəndə ki, Qara Nəbi Hilal bəy ilə onun adından kəndliləri talayıb çox əsəbləşir və hər ikisindən bu özbaşınalığın hesabını sorur.

Qaçaq Süleyman da oğru xislətli Şirxanın kəndi talan etməsini eşidəndə Kərbəlayi Behbuda bu kəlmələri söyləyir:

- Bir-birimizin harayına gəlməsək, meydanda tək qalarıq. İmkan vermək lazım deyil Nerses, Yapon, Şirxan kimi nadürüstlər bu torpaqda at oynatsınlar! Bilirsiniz, onların xisləti oğurluqla, qəddarlıqla yoğrulub. Ya camaatın mal-qarasını yağmalayıb aparacaq, ya da örüşə buraxılmış atları qaçırdacaq, ya da ki, çalışacaqlar kasıb-kusubun mal-mülkünü əllərindən alsınlar... (14,75)İndidə Qaçaq Gülsümdən bəhs edən "Qaçaq Süleyman" dastanından bir epizoda nəzər yetirək. Gülsüm Şəmkir ərazisində başçısı Çaqqal Səlim olan dəstəyə qoşulur. Lakin, Səlimin fikri çoxlu var-dövlət toplayıb İrana qaçmaq idi. Buna görə kasıbların da qarşısını kəsir, əllərində olan-qalanı alırdı. Bu isə Gülsümün xoşuna gəlmirdi. Çaqqal Səlimin öz dostunu öldürüb qızıl-gümüşünü ələ keçirməsi və bir çobanın sürüsünü aparıb Göyçədə satmasını görən Gülsüm daha buna dözmür, Çaqqal Səlimin yeməyinə bihuşdarı qatır və sonra da başını kəsir. (7)Kiçicik epizodlarda qəhrəmanların oğrularla amansızcasına mübarizəsi bədii boyalarla təsvir edilir. Yuxarıda sadalanan yeddi xüsusiyyət qaçaq qəhrəmanları kökləri daha qədimə söykənən dünyanın bir çox ölkələrinin "nəcib quldur", "xalq intiqamçısı" obrazları lə ümumi cəhətidir. İnsanlar "nəcib quldur", "xalq intiqamçısı" obrazını müasir dövrdə hətta kinofilmlərə, çizgifilmlərinə də daşımışdır. Məsələn, Jonston Makallinin "Kapistranonun lənəti" povestində **"Zorro"** adlı İspan xalqının əfsanəvi qəhrəmanından bəhz edilir. Bu qəhrəmanın

Meksikanın əfsanəvi Robin Hudu Xoakin Muretanın prototipi olduğu söylənilir. (20) Xoakin isə qrinqoların (ingilis dilli, ağ dərili gəlmələr) onun ailəsinə qarşı törətdiyi zorakılıqdan sonra ətrafına qohumlarını toplayaraq dağlıq ərazilərdə qaçaq həyatı yaşayır. Tezliklə, o, çililərin və meksikalıların patriot qəhrəmanına çevrilir. Onun filmdəki obrazı olan "Zorro" qara maska altında gizlənərək sadə insanları hakimiyyətdə baş verən bəzi ədalətsizliklərdən qoruyaraq xalqın sevimli qəhrəmanına çevrilir. Yaxud da, "Avtomobildən qorun" filmini nümunə çəkə bilərik. Sovetlər dönəmində çəkilmiş filmin qəhrəmanı **Yuriy Detoçkin** təmiz qəlbli bir insandır. O, haram yollarla gəlir əldə edib avtomobil sahibi olan varlıların avtomobillərini oğurlayıb satır. Əldə etdiyi gəliri isə uşaq evlərinə təhvil verərək bir tərəfdən oğurluq etsə də, digər tərəfdən xeyirxah iş görür. Onun xeyirxah əməli tamaşaçıda qəhrəmana qarşı böyük sevgi doğurduğu üçün oğurluq etməsi arxa planda qalır. Filmin ssenarisi Sovet dövründə xalq arasında gəzən söz-söhbətlərə əsasən yazılsa da, bu söhbətlərin əsassız olduğu ortaya çıxıb. Aydın olub ki, xalq arasında yayılan "xeyirxah avtomobil oğrusu" həqiqətdə yoxdur, bu yalnız uydurulmuş qəhrəmandır. (20) Bu film Sovet ideologiyasına uyğun olmasa da, xalq tərəfindən böyük məhəbbətlə qarşılanmışdır. Rafael Sabatinin "Kapitan Bladın uğuru" adlı romanı əsasında çəkilən "Kapitan Bladın Odisseyası" fiminin qəhrəmanı isə pirat Piter Bladdır. O, klassik el qəhrəmanı obrazındadır. Kapitan Blad piratlara zorakılığı, oğurluğu qadağan edərək onları ləyaqətli olmağa məcbur edir. Piter Blad yoldaşları arasında öz zəhmi və ağlı ilə seçilir. (21) Tarixin bütün dövrlərində kasıbları təmsil edənlər ədalətli hökmdar arzusunda olmuş, xəyallarında varlılardan mal-mülkü alıb kasıblara paylayan cəsur qəhrəman obrazı yaratmışdır. Qaçaqların qəhrəmanlıqları folklorda daha çox şişirdilir. Bu isə onu göstərir ki, xalq öz arzularını həmin qəhrəmanların simasında həyata keçirmək istəmişdir. Bütün bunlar qaçaq dastanlarında bir bütöv olaraq öz ifadəsini tapır.

İstifadə edilmiş ədəbiyyat siyahısı:


1. Axundov Ə. "Qaçaq Nəbi". Bakı 2008, 432 s
2. Aristotel. Poetika. Bakı "Qərb-Şərq", 2006, 120 səh.
3. Bayat F. Folklor dərsləri. Bakı, "Elm və təhsil", 2012, 424 səh. Səh 258,
4. Bayat F. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. Bakı, "Nurlan" 2011, 160 səh.
5. Cahitakın. Əşkiya və İnce Memed. 1 Ocak 2007
6. Dastançı Ə.Q. Dəli Alı. Bakı, 2003, 261 s.
7. Əliyev Z. Stalinin xilaskarı, ermənilərin kabusu: kişi paltarlı qaçaq Gülsüm. Publika.az
8. Qaflanoğlu Ə. Qaçaq Molla Nur." Kulis.lent.az www/kulis.az
9. Qarabağ: folklor da bir tarixdir, VI kitab Bakı, "Zərdabi LTD" MMC, 2013.
10. Moran Berna. Türk romanına eleştirel bir bakış. 2 cild.
11. Namazov Q. Xalq qəhrəmanının şöhrəti. Bakı."Orxan" 2005. 298 səh.
12. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II hissə, Bakı, "Elm"-2006, 685 səh
13. Pirsultanlı Sədnik Paşa. "Qaçaq Gülsüm". "Ünsiyyət" Bakı 2012. 273 səh.
14. Rüstəmov V. Qaçaq Süleyman. Bütöv Azərbaycan qəzeti. 14 aprel. 2014
15. Rüstəmzadə R. El qəhrəmanları xalq ədəbiyyatında. Bakı, "Gənclik" 1984.
16. Rüstəmzadə R. Yeddi dastan. Bakı, Azərnəşr, 1989, 168 s.
17. Tahirov Ə. Qaçax Nəbi. Bakı, Sovet Yazıçılar İttifaqı, 1938. 49 səh
18. Tarih ve medeniyet. Töreleri ve Tarihleri ile Eşkiyalar. 23 kasım.
19. Vəliyev V. Azərbaycan folkloru. Bakı, Maarif, 1985, 414 s.
20. Архетип благородного разбойника: от Тиамида до Леона, Благородный_разбойник
21. Гелиодор. Эфиопика. В 2 томах, Том 1, Книга 1, М., «Просвещение», 1965,
22. Шиллер Ф. Драмы и стихотворения. Художественная литература. 278 ст. с 31-32.

А.Гасимова

Древние исторические корни образа Качакского героя

Резюме

В статье анализируются качагские герои с их древними корнями как «благородный разбойник» и «народный мститель». А так же раскрывается семь качеств легендарных «благородных разбойников» и настоящих беглецов. Ясно, что действия, которые мы называем Качаскими движениями, были во многих странах мира на всех этапах истории. Некоторые из них были популярны только в своей стране и назывались по-разному в их странах. Например, вождение на Балканах, дакойт в Индии, конга в Бразилии, опришки в Украине, бетар в Венгрии, клефт в Греции и на Кипре. называется национальными именами.В ходе анализа приводятся эпизоды из Качагских дастанов. Исследование показывает, что такие герои, как «благородный разбойник», «мстители народа», « востонавители справедливости» и т. д. были востребованы на протяжении всей истории. Люди, столкнувшиеся с несправедливостью, жили своими мечтами и и оживляя своих герое в фольклоре. Качаги безупречно проиллюстрированы недостатками в фольклоре. Это естественно. Потому, эти герои имеют характерные черты эпических героев, таких как «благородный разбойник» или «мститель народа». Будь то Качакские дастаны, древний эпос или письменная литература, мы встречаемся с четырьмя типами образа, которые описаны в статье.Делается вывод, что даже в наше время у людей сформировался образ «народной мститель», «благородный разбойник».

Ключевые слова: беглый образ, «благородный раб», «народная месть», образ Тиамиды, беглый пророк, Робин Гуд

A.Gasimova

The ancient historical roots of the image of a fugitive hero.

Summare

The article compares the heroic characters of the noble slave with the ancient roots. Seven identical features of the legendary noble bandits are analyzed by the historical fugitive heros.During the analysis the study shows that in all periods of history there was a need for heroes. It is clear that the actions that we call Kachak movements were in many countries of the world at all stages of history.

Some of them were popular only in their own country and were called differently in their countries. For example, driving in the Balkans, Dacoit in India, Conga in Brazil, oprichki in Ukraine, Betar in Hungary, Kleft in Greece and Cyprus. called national names. Fugitive heroes are flawlessly illustrated in folklore. This is natural

Whether in the runaway epics or in the ancient epic or written literature we come across four types of images which are described in the article. It is concluded that even in modern times the people have formed the image of people’s revenge, noble bandits. Referring to these images they were animated in films and cartoons.

**Keywords:** fugitive image, noble slave, people’s revange, Robbin Hood

Redaksiyaya daxil olma tarixi: 21.06.2019

Çapa qəbul olunma tarixi: 04.08.2019

Filologiya elmləri doktoru, professor Mahmud Allahmanlı tərəfindən çapa tövsiyə olunmuşdur.